# “AZƏRSU” AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

# BÜLLETEN

№ 03 (31) • Mart 2015-ci il    w w w . a z e r s u . a z    Qaynar xətt - 955


“Su həyat deməkdir,
təmiz su sağlam
həyat deməkdir”

*İlham Əliyev*




# Trans-Anadolu qaz boru kəmərinin təməli qoyulmuşdur

*səh. 2*

## Kürdəxanı qəsəbəsində içməli su təchizatı layihəsi uğurla yekunlaşmışdır



*səh. 4-5*

## “Azərsu” ASC beynəlxalq su sərgisində təmsil olunmuşdur



*səh.7*

## Təlim Tədris Mərkəzinin tikintisi başa çatmışdır



*səh. 8*

# Trans-Anadolu qaz boru kəmərinin təməli qoyulmuşdur

***Martın 17-də Türkiyənin Qars vilayətinin Selim rayonunda Trans-Anadolu qaz boru kəməri - TANAP-ın təməlinin qoyulması münasibətilə təntənəli mərasim keçirilmişdir. Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Gürcüstan Prezidenti Giorgi Marqvelaşvili mərasimdə iştirak etmişlər.***

Əvvəlcə TANAP layihəsinə həsr olunmuş film nümayiş etdirilmişdir. Filmdə qeyd olunmuşdur ki, Azərbaycanın və Türkiyənin birgə səylərinin məhsulu olan bu layihə üzrə saziş 2012-ci ildə İstanbulda imzalanmışdır. 5 il ərzində reallaşması nəzərdə tutulan layihə bir neçə mərhələdə həyata keçiriləcək və ilk mərhələ 2018-ci ildə başa çatacaq. 2020-ci ildə bu kəmərlə nəql olunacaq qazın həcmi ildə 16 milyard, 2023-cü ildə 23 milyard, 2026-cı ildə isə 31 milyard kubmetrə çatdırılacaq. İlk dövrdə TANAP kəməri ilə nəql olunacaq 16 milyard kubmetr Azərbaycan qazının 10 milyard kubmetri Avropaya, 6 milyard kubmetri isə Türkiyəyə satılacaq. Avropa üçün nəzərdə tutulan qaz Türkiyə-Bolqarıstan və ya Türkiyə-Yunanıstan sərhədində təhvil veriləcək.

Mərasimdə Türkiyə, Azərbaycan və Gürcüstanın dövlət himnləri səslənmişdir.

**Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev** TANAP-ın həyata vəsiqə qazanmasının Azərbaycan və Türkiyə dövlət başçılarının səyləri nəticəsində mümkün olduğunu bildirmişdir. Bu layihənin ölkələrimizin inkişafına və xalqlarımızın rifahına xidmət edəcəyini diqqətə çatdırmışdır.

TANAP layihəsinin həyata keçirilməsinin ABŞ hökuməti üçün çox önəmli olduğunu deyən **Dövlət Departamentinin beynəlxalq enerji məsələləri üzrə xüsusi elçisi və əlaqələndiricisi Amos Hoxstayn** "Cənub" qaz dəhlizi layihəsinin icrası ilə bağlı Birləşmiş Ştatların dəstəyini ifadə etmişdir.

**Avropa Komissiyasının enerji məsələləri üzrə vitse-prezidenti Maroş Şefçoviç** demişdir ki, layihəyə böyük əhəmiyyət verən Avropa İttifaqı işlərin yüksək səviyyədə həyata keçirilməsi üçün bundan sonra da əlindən gələni edəcək.

**Türkiyənin enerji və təbii sərvətlər naziri Taner Yıldız** Avropa İttifaqı ölkələrinin təbii qaza ehtiyacının ödənilməsi istiqamətində mühüm layihə olan TANAP-ı "Cənub" qaz dəhlizinin əsas hissəsi adlandırmışdır. O, böyük siyasi əhəmiyyətə malik bu layihənin iqtisadi inkişafın təminatçısı olacağını demişdir.

**Gürcüstan Prezidenti Giorgi Marqvelaşvili** "Cənub" qaz dəhlizinin ölkəsi üçün də çox önəmli olduğunu qeyd edərək, layihənin Asiya ilə Avropa arasında enerji dəhlizi rolunu oynadığını, ticarət, turizm və digər layihələrin inkişafına xidmət




edəcəyini, ölkələrimizin enerji təhlükəsizliyinin təmin olunmasına güclü dəstək verdiyini diqqətə çatdırmışdır.

Mərasimdə çıxış edən **Azərbaycan Prezidenti İlham Əliyev** bu layihəni Türkiyə-Azərbaycan birliyinin layihəsi adlandırmışdır. Dövlət başçısı demişdir ki, 1994-cü ildə ulu öndər Heydər Əliyevin siyasi müdrikliyi və cəsarəti sayəsində reallaşan "Əsrin müqaviləsi", həmçinin Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istifadəyə verilməsi bölgənin və qitənin enerji təhlükəsizliyində əvəzsiz rol oynamışdır. TANAP qaz kəmərinin də bu enerji dəhlizi üzrə inşa edildiyini deyən Prezident İlham Əliyev dünya miqyasında böyük qaz yataqlarından olan "Şahdəniz"in "Cənub" qaz dəhlizi üçün yeganə resurs mənbəyi olduğunu vurğulamışdır. Qısa vaxtda dünyada böyük dəstək qazanan TANAP, 2013-cü ildə "Cənub" qaz dəhlizinin tərkib hissəsi kimi seçilən TAP layihələri üzrə işlərin cədvəl üzrə gedəcəyinə əminliyini ifadə edən dövlət başçısı "Cənub" qaz dəhlizini Avropanın ən böyük infrastruktur layihəsi kimi dəyərləndirmişdir.

Türkiyə, Azərbaycan və Gürcüstanın birgə təşəbbüsü ilə həyata keçirilən layihələrin hər zaman uğur qazandığını vurğulayan Prezident İlham Əliyev Avropanın qaza olan tələbatının ödənilməsində Azərbaycanın mühüm rolunu vurğulamışdır.

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan** bu layihənin sülhə və rifaha xidmət etməsini arzulamışdır. Dövlət başçısı "Şahdəniz" qazını Avropaya çatdıracaq bu kəmərin əhəmiyyətindən danışmış, onun ilk növbədə, ölkələrimizin və bölgə xalqlarının rifahına xidmət edəcəyini bildirmişdir. Nəzərdə tutduğu hədəflərin özəlliyi baxımından TANAP-ın alternativinin olmadığını deyən Rəcəb Tayyib Ərdoğan onun Avropa ilə Xəzər bölgəsi arasında güclü əlaqə yaradacağını, layihənin nəzərdə tutulduğu vaxtda istismara veriləcəyinə əmin olduğunu demişdir.

Sonra TANAP boru kəmərinin təməli qoyulmuşdur.



# Milli Məclisdə Nazirlər Kabinetinin hesabatı dinlənilmişdir



***Milli Məclisin yaz sessiyasının martın 17-də keçirilən iclasında Nazirlər Kabinetinin 2014-cü il üzrə fəaliyyətinə dair illik hesabatı dinlənilmişdir.***

Əvvəlcə Milli Məclisin sədri Oqtay Əsədov Azərbaycan xalqını qarşıdan gələn Novruz bayramı münasibətilə təbrik etmişdir. Milli Məclisin sədri 2014-cü ilin sosial-iqtisadi yekunları ilə bağlı fikirlərini bildirərək əlavə etmişdir ki, Azərbaycanın sosial-iqtisadi inkişaf strategiyası ötən il də uğurla həyata keçirilmişdir. Ölkəmizdə makroiqtisadi sabitlik qorunmuş, iqtisadiyyatın şaxələndirilməsi, beynəlxalq aləmə inteqrasiya siyasəti davam etdirilmişdir.

Sonra Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadə Nazirlər Kabinetinin 2014-cü ildə fəaliyyəti barədə hesabatla çıxış etmişdir.

Baş nazir demişdir ki, son illər ölkədə aparılan sosial-iqtisadi siyasət hesabat dövründə də uğurla davam etdirilmişdir. İlin yekunlarının təhlili göstərir ki, qarşıya qoyulmuş bütün əsas vəzifələr yerinə yetirilmişdir. Makroiqtisadi sabitlik qorunub saxlanılmış, ümumi daxili məhsulun artımına nail olunmuş, iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun sürətli inkişafı təmin edilmiş, xalqın rifahı davamlı olaraq yüksəlmişdir.

Bildirilmişdir ki, nailiyyətlərin təməlində Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkədə yaradılmış dayanıqlı ictimai-siyasi sabitlik və əvvəlki illərdə yaradılmış iqtisadi baza dayanır. Belə nəticələr dünyada iqtisadi inkişafın zəiflədiyi bir vaxtda və beynəlxalq maliyyə bazarlarında qeyri-müəyyənliyin və onun fəsadlarının ölkə iqtisadiyyatına təzyiqi şəraitində əldə edilmişdir.

Baş nazir qeyd etmişdir ki, 2014-cü ildə dayanıqlı ictimai-siyasi, iqtisadi stabillik qorunmuşdur: "Dünyada iqtisadi inkişafın zəifləməsinə və maliyyə bazarlarında qeyri-müəyyən vəziyyətə baxmayaraq, 2014-cü ildə Azərbaycanda ÜDM 2,8 faiz artaraq 59 mlrd. manat təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən əlavə dəyər 6300 manata çatmışdır. Hesabat ilində əsas kapitala 17,6 mlrd. manat vəsait yatırılmışdır. Yatırılan investisiyanın 66 faizi qeyri-neft sektorunun payına düşmüşdür".

2014-cü ildə ölkə üzrə ümumi investisiyalar 27,7 milyard dollar olmuşdur. Həyata keçirilən səmərəli iqtisadi və maliyyə siyasəti daxili sərmayələrlə yanaşı, 11,5 milyard dollar məbləğində xarici investisiyaların cəlb olunmasına da zəmin yaratmışdır. İl ərzində orta aylıq əməkhaqqı 4,5 faiz, əhalinin gəlirləri 4,8 faiz, banklardakı əmanətləri 12,4 faiz artmış. İllik inflyasiya isə 1,4 faiz səviyyəsində saxlanılmışdır.

Hesabat ilində manatın sabitliyi qorunmuş, ölkənin valyuta ehtiyatları 51,3 mlrd. dolları keçmişdir. Ölkənin ümumi sosial-iqtisadi inkişafı aztəminatlı təbəqənin maddi vəziyyətinin yaxşılaşdırılmasına şərait yaratmışdır. Bunun nəticəsidir ki, ötən il ünvanlı sosial yardım alanların sayında 33,7 faiz azalma qeydə alınmışdır. Bir ailəyə düşən ünvanlı sosial yardımın məbləği isə 149 manata qədər artırılmışdır.

Baş nazir əlavə etmişdir ki, hesabat ilində ölkədə yeni müəssisələrin sayı 16 faiz artaraq 9000-i ötmüşdür. Sahibkarlıq subyektlərinin sayı 386 mindən çox olmuşdur.

Ötən il Azərbaycanın 150 ölkə ilə xarici ticarət dövriyyəsi 31 mlrd. dollar təşkil etmişdir ki, bunun 47 faizi Avropa dövlətləri ilə ticarət əlaqələrinin payına düşür.

Baş nazir bildirmişdir ki, Prezident, Ali Baş Komandan İlham Əliyev ordu quruculuğunun daim təkmilləşdirilməsini və ordunun ən müasir silah-sursatla təmin edilməsini, hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılmasını gündəlik nəzarətində saxlayır. Son zamanlar hərbçilərimizin işğalçı erməni silahlı birləşmələrinin cəbhə xəttində törətdikləri təxribatlara verdiyi tutarlı cavablar Azərbaycan ordusunun döyüş qabiliyyətinin gündən-günə artdığının əyani sübutudur.

Sonra Nazirlər Kabinetinin hesabatı ilə əlaqədar müzakirələr aparılmışdır. Çıxış edən deputatlar ötən il Azərbaycanın sosial-iqtisadi inkişafında əhəmiyyətli nəticələr əldə olunduğunu, əhalinin yaşayış səviyyəsinin getdikcə yüksəldiyini söyləmişlər. Bildirilmişdir ki, Nazirlər Kabinetinin illik hesabatında ölkə həyatının bütün sahələri tam əhatə edilmişdir, bütün əsas göstəricilər öz əksini tapmışdır.



# Kürdəxanı qəsəbəsində içməli su

***"Azərsu" Açıq Səhmdar Cəmiyyəti ilə Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (KOİCA) birgə həyata keçirdiyi "Abşeron yarımadasında su çatışmazlığı üzrə ümumi həll: Abşeron yarımadasının Kürdəxanı qəsəbəsində su təchizatı sistemlərinin yaradılması" layihəsi uğurla başa çatmışdır. Martın 14-də Kürdəxanı qəsəbəsində yeni su təchizatı sistemlərinin istismara verilməsinə həsr olunmuş mərasim keçirilmişdir. Mərasimdə "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov, Koreya Respublikasının Azərbaycandakı səfiri Çoi Sukin, KOİCA-nın vitse-prezidenti Kim İn, Sabunçu rayon İcra Hakimiyyətinin başçısı Adil Vəliyev və ictimaiyyət nümayəndələri iştirak etmişlər.***





Tədbirdə çıxış edən **"Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov** ölkə əhalisinin keyfiyyətli və fasiləsiz içməli su ilə təmin olunmasını Prezident İlham Əliyevin daim diqqətdə saxladığını xatırladaraq qeyd etmişdir ki, hazırda respublikanın 40-dək şəhər və rayon mərkəzində, həmçinin Bakıətrafı qəsəbələrdə içməli su və kanalizasiya layihələri icra olunur. Bakı şəhəri və ətraf qəsəbələrin sosial iqtisadi inkişafı dövlət proqramına uyğun olaraq 2013-cü ilin mayında Kürdəxanı qəsəbəsində yeni içməli su layihəsinin icrasına başlanılmışdır. Bu layihə 2035-ci ilə perspektiv inkişaf nəzərə alınmaqla Kürdəxanı qəsəbəsində 26250 nəfərin içməli su təchizatının əsaslı şəkildə yaxşılaşdırılmasına hesablanmışdır: ***"Koreya şirkətləri tərəfindən həyata keçirilən tikinti-quraşdırma işləri qısa müddətdə tam başa çatdırılmışdır. Layihə çərçivəsində qəsəbədə polietilen***



# təchizatı layihəsi uğurla yekunlaşmışdır

*borularla 97,2 km uzunluğunda içməli su xətləri çəkilmiş, 3945 ünvana birləşmə verilmiş və bütün abunəçilər smart sayğaclarla təmin edilmişdir. Bununla da 14300 nəfər qəsəbə sakini 24 saat fasiləsiz rejimdə içməli su ilə təmin olunmuşdur. Eyni zamanda yanğın təhlükəsizliyi məqsədi ilə qəsəbənin müxtəlif yerlərində 436 yanğın hidrantı quraşdırılmışdır".*



**Koreya Respublikasının Azərbaycandakı səfiri Çoi Suk-in** çıxışında Azərbaycan və Koreya arasında iqtisadi, siyasi və mədəni əlaqələrin yüksələn xətlə inkişaf etdiyini yüksək qiymətləndirmişdir. Səfir ölkəsinin Azərbaycanda həyata keçirilən layihələrə bundan sonra da dəstək verəcəyini bildirmişdir.

**KOİCA-nın vitse-prezidenti Kim İn** layihə haqqında məlumat verərək bildirmişdir ki, təmsil etdiyi təşkilat Azərbaycan hökuməti ilə sıx əməkdaşlıq edir: *"Kürdəxanı qəsəbəsinin su təchizatının yaradılması üçün Koreya hökuməti Azərbaycana 26,18 milyon ABŞ dolları məbləğində yardım (qrant) ayırmışdır. Kürdəxanı qəsəbəsinin içməli su təchizatının yaxşılaşdırılması layihəsinin vaxtında və keyfiyyətlə icrası bu uğurlu əməkdaşlığın bariz nümunəsidir. Bizim işlərimiz bununla yekunlaşmır. Pirşağı qəsəbəsinin yaxınlığında tikiləcək çirkab sutəmizləyici qurğunun inşasına Koreya hökuməti kredit ayırmışdır və artıq bu il işlərə başlanılacaqdır. KOICA-nın ayıracağı qrant hesabına Beyləqan rayonu ərazisində Xocavənd qəsəbəsinin su təchizatı sistemlərinin yaradılması da nəzərdə tutulur".*

**Sabunçu rayon İcra Hakimiyyətinin başçısı Adil Vəliyev** su təchizatının və kanalizasiya sistemlərinin yenidən qurulmasının qəsəbənin sosial-iqtisadi inkişafına töhfə verdiyini diqqətə çatdırmışdır. Qeyd olunmuşdur ki, bu layihənin icrası Kürdəxanı qəsəbəsinin uzun illərdir mövcud olmuş içməli su problemini birdəfəlik həll etmişdir.

Qəsəbə sakinləri adından çıxış edən **Vamiq Məmmədəliyev** Kürdəxanı qəsəbəsinin içməli su probleminin qısa müddətdə həll edilməsinə görə ölkə başçısına, Koreya hökumətinin nümayəndələrinə, "Azərsu" ASC-nin əməkdaşlarına minnətdarlığını bildirmişdir.

Daha sonra layihənin açılışı olmuşdur.

Qeyd edək ki, bu layihə çərçivəsində Kürdəxanı qəsəbəsində 1400 mm diametrli dəmir beton borularla 761 metr uzunluğunda mikrotunel tipli kanalizasiya kollektoru da tikilmişdir. Su şəbəkəsi və kanalizasiya kollektorunun tikintisi Sunjin Engineering və Yooshin Engineering şirkətləri tərəfindən layihələndirilmiş, Hyundai Engineering və Halla Energy&Environnement şirkətləri isə tikinti-quraşdırma işlərini həyata keçirmişdir. Tikintiyə texniki nəzarəti Koreyanın "Saman" məsləhətçi şirkəti yerinə yetirmişdir.

Növbəti mərhələdə qəsəbə yaxınlığında hər birinin tutumu 10 min kubmetr olan 2 ədəd su anbarı da tikiləcək. "Kürdəxanı" su anbarından Kürdəxanı qəsəbəsi ilə yanaşı, Pirşağı və digər ətraf yaşayış məntəqələri də qidalanacaqdır. Eyni zamanda Kürdəxanı qəsəbəsində yeni kanalizasiya şəbəkəsinin yaradılması da nəzərdə tutulur. Azərbaycan hökuməti tərəfindən maliyyələşdiriləcək layihəyə uyğun olaraq qəsəbədə 77,3 km uzunluğunda kanalizasiya şəbəkəsi və 3,8 km uzunluğunda kanalizasiya kollektorunun tikintisi nəzərdə tutulur. Kürdəxanı qəsəbəsində yaranan tullantı suları inşaasına hazırlıq görülən Pirşağı Çirkab Sutəmizləyici Qurğusuna ötürüləcəkdir. Məhsuldarlığı sutkada 40 min kubmetr layihələndirilən qurğunun tikintisi Koreya hökuməti ilə birgə maliyyələşdiriləcəkdir. Hazırda məsləhətçi şirkət tərəfindən ilkin layihələndirmə və tender sənədlərinin hazırlanması işləri aparılır. Qurğunun tikintisinə 2015-ci ilin sonlarında başlanılması planlaşdırılır.



# “Regional Təlim və İnkişaf Proqramı - 1” layihəsinin icrası müsbət qiymətləndirilmişdir



***“Azərsu” Açıq Səhmdar Cəmiyyətində “Regional Təlim və İnkişaf Proqramı - 1” layihəsinin yekunlarına həsr olunmuş tədbir keçirilmişdir.***

**Səhmdar Cəmiyyətin İşlər İdarəsinin rəis müavini Rahid Fətəlizadə** “Regional Təlim və İnkişaf Proqramı - 1” layihəsi ilə bağlı geniş təqdimatla çıxış edərək bildirmişdir ki, işçilərin biliklərinin və peşəkarlıq qabiliyyətinin yüksəldilməsi məqsədilə 2014-cü ildə kompleks təlimlərin keçirilməsinə qərar verilmişdir. İlin müxtəlif dövrlərində Quba, Lənkəran, Şamaxı, Gəncə, Mingəçevir, Füzuli, Şirvan şəhərləri mərkəz seçilməklə 7 regionda təlimlər təşkil olunmuşdur. Proqram çərçivəsində regionlarda fəaliyyət göstərən 58 təşkilatın 1249 işçisi 9 istiqamət üzrə təlimlərdə iştirak etmişdir. Təlimlərdən əvvəl və sonra iştirakçıların bilikləri qiymətləndirilərək müqayisəli təhlillər aparılmış və nəticələr qənaətbəxş olmuşdur. Təlim müddətində iştirakçıların asudə vaxtlarının səmərəli keçirilməsinə xüsusi diqqət yetirilmiş və müxtəlif sosial proqramlar təşkil edilmişdir.

**“Azərsu” ASC-nin sədri Qorxmaz Hüseynov** “Regional Təlim və İnkişaf Proqramı - 1” layihəsinin yüksək səviyyədə təşkil edildiyini bildirmiş və nəticələrdən razı qaldığını diqqətə çatdırmışdır. Cəmiyyətin sədri qeyd etmişdir ki, icra olunan layihələrdə ən son texnologiyalar və idarəetmə metodlarından istifadəyə üstünlük verildiyindən kadr hazırlığı məsələləri bundan sonra da diqqətdə saxlanılacaq və daha da gücləndiriləcəkdir: *“Qabaqcıl təcrübənin öyrənilməsi məqsədi ilə mütəxəssislərimiz mütəmadi olaraq təlimlərə göndərilir. İcrasına ötən il başlanılmış “Regional Təlim və İnkişaf Proqramı - 1” layihəsini müvəffəqiyyətlə başa vurmuş mütəxəssislər qazandıqları bilik və təcrübələri fəaliyyətlərində tətbiq edir, digər həmkarları ilə paylaşırlar. “Azərsu” ASC işçilərin peşəkarlığının artırılması məqsədilə layihələrin icrasını bundan sonra da davam etdirəcəkdir”.*



**“Azərsu” ASC-nin “Birləşmiş Sukanal” MMC-nin direktoru Etibar Məmmədov** qeyd etmişdir ki, regional təlimlərin təşkili Səhmdar Cəmiyyətin kadr bazasının formalaşdırılmasına əlverişli imkanlar yaratmışdır. Rayon sukanal idarələrinin əməkdaşları təlim çərçivəsində biliklərini artırmaqla yanaşı, su təchizatı və kanalizasiya sektorundakı yeniliklərlə tanış olmaq imkanı qazanmışlar.

Təlimlərin iştirakçısı olmuş **Zərdab Sukanal İdarəsinin əməkdaşı Nərminə Məmmədzadə** təlim proqramının əhəmiyyətindən danışmış və qeyd etmişdir ki, təlimdə qazanılmış nəzəri və praktiki təcrübə sonrakı iş proseslərində böyük fayda verir.

Tədbirin sonunda təlimləri müvəffəqiyyətlə başa vurmuş 16 əməkdaş və təlimlərin təşkilində fəallıq nümayiş etdirmiş 13 işçi mükafatlandırılmışlar.



# "Azərsu" ASC beynəlxalq su sərgisində təmsil olunmuşdur

***24-27 mart 2015-ci il tarixlərində Almaniya Federativ Respublikasının paytaxtı Berlin şəhərində "Wasser Berlin International-2015" beynəlxalq su sərgi və konfransı keçirilmişdir. Nüfuzlu "Wasser Berlin International 2015" sərgisində "Azərsu" ASC ilk dəfə olaraq xüsusi stendlə təmsil olunmuş, Səhmdar Cəmiyyətin nümayəndə heyəti konfransda iştirak etmişdir.***

"Berlin EXPO Center"də təşkil olunmuş sərgidə "Azərsu" ASC-nin xüsusi dizaynla stendi quraşdırılmışdır. Stenddə Səhmdar Cəmiyyətin tarixi və fəaliyyəti ilə bağlı xüsusi bannerlər yerləşdirilmişdir. Stend dünyanın müxtəlif ölkələrində su təchizatı və kanalizasiya sahəsində fəaliyyət göstərən şirkətlərin nümayəndələrinin diqqətini cəlb etmişdir. Nümayəndə heyətinin üzvləri tərəfindən ziyarətçilərə içməli su təchizatı və kanalizasiya sahəsində son illər həyata keçirilən layihələr, yeni texnologiyaların tətbiqi barədə ətraflı məlumat verilmişdir. Bildirilmişdir ki, Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq əhalinin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılması məqsədi ilə respublikanın 40 şəhər və rayon mərkəzində yeni layihələr həyata keçirilir. 23 şəhərdə həyata keçirilən layihələr beynəlxalq maliyyə qurumları ilə birgə icra olunur. Bu layihələr çərçivəsində sugötürücü qovşaqlar və sutəmizləyici qurğular, su anbarları, çirkab sutəmizləyici qurğular tikilir, içməli su və kanalizasiya xətləri çəkilir, tunel tipli kanalizasiya kollektorları inşa edilir. Yeni layihələrin icrasında beynəlxalq təcrübə, qabaqcıl texnologiyalar, müasir idarəetmə sistemləri, informasiya-kommunikasiya texnologiyalarının tətbiqinə xüsusi diqqət yetirilir.



Maraqlanan ziyarətçilərin və şirkət nümayəndələrinin diqqətinə çatdırılmışdır ki, Bakı şəhəri və Abşeron yarımadasında içməli su və kanalizasiya infrastrukturunun yaxşılaşdırılması məqsədi ilə "2035-ci ilə qədər perspektiv inkişaf nəzərə alınmaqla Abşeron yarımadasının qəsəbə və kəndlərində su təchizatı, kanalizasiya sistemləri və yağış sularının idarə olunması üçün Master Plan"a uyğun olaraq layihələrin icrası davam etdirilir. Master Planın hazırlanması ilə paralel olaraq görüləcək işlərin layihələndirilməsinə də başlanılmışdır. Master Plana əsasən, Bakı şəhəri və Abşeron yarımadasında 550 kilometr magistral, 8100 kilometr paylayıcı su xətləri, ümumi həcmi 650 min kubmetr olan 65 su anbarı tikiləcəkdir. Eyni zamanda kanalizasiya sistemi üzrə ümumi məhsuldarlığı sutkada 1 milyon 400 min kubmetr olan 11 ədəd çirkab sutəmizləyici qurğu, 140 kilometr tunel, 680 kilometr kollektor, 6400 kilometr kanalizasiya şəbəkəsi yaradılacaqdır.

Sərgi və konfrans çərçivəsində "Azərsu" ASC-nin nümayəndə heyəti bir sıra beynəlxalq qurumların və şirkətlərin nümayəndələri ilə görüşlər keçirmişlər. "Messe Berlin" şirkətinin layihə direktoru Korneliya Vulf vam der Sahl "Azərsu" ASC-nin nümayəndə heyətini qəbul etmişdir. Nümayəndə heyəti içməli su və tullantı suların təmizlənməsi üzrə Almaniyanın "Blucher" və "Lim", bioreaktorlar üçün modullar istehsal edən "Martin Membrane Systems", dozator nasosların istehsalı üzrə İtaliyanın "Etatron D.S", çirkləndiricilərin tərkibini təyin edən onlayn cihazların istehsalı üzrə Almaniyanın "Lar", sızmaları aşkarlayan avadanlıq və texnologiyalar üzrə Almaniyanın "Sewerin", modul tipli sutəmizləyici qurğular üzrə Ukraynanın "Wallace and Tiernam", innovativ titan tərkibli flokulxamların istehsalı üzrə Rusiyanın "Cittek", tullantı suların təmizlənməsi üzrə Qazaxıstanın "Antares", elektromaqnit su sayğacları üzrə Almaniyanın "Schor and Parfenon" və digər şirkətlərin nümayəndələri ilə işgüzar görüşlər keçirilmişdir. Görüşlərdə "Azərsu" ASC-nin fəaliyyəti ilə bağlı ətraflı məlumat verilmiş və Azərbaycana səfər etmək və öz proqramlarını təqdim etmək məqsədilə 9 şirkətlə əlaqələr yaradılmışdır.

4 gün davam etmiş sərgidə dünyanın 26 ölkəsindən su təchizatı və kanalizasiya sistemləri sahəsində peşəkar xidmətlər göstərən və bu sahədə yeni texnologiya və avadanlıq istehsal edən 557 şirkət təmsil olunmuş, 104 ölkədən 23 minədək peşəkar mütəxəssis ziyarətçi kimi iştirak etmişdir. Əvvəlki sərgi ilə müqayisədə xarici iştirakçıların xüsusi çəkisi artaraq 27 faizə çatmışdır. Sərgi müddətində iştirakçı şirkətlərin 75 faizi yeni əlaqələr qurmağa, 10 faizi isə işgüzar müqavilələr bağlamağa müvəffəq olmuşlar.

Növbəti "Wasser Berlin International 2017" sərgisinin 28-31 mart 2017-ci il tarixlərində keçirilməsi nəzərdə tutulur.



***Kadr hazırlığı və işçilərin peşəkarlığının artırılması məqsədi ilə "Azərsu" Açıq Səhmdar Cəmiyyəti tərəfindən inşa edilən Təlim Tədris Mərkəzinin tikintisi yekunlaşmışdır.***




# Təlim Tədris Mərkəzinin tikintisi başa çatmışdır

Ümumi sahəsi 5000 kv metr olan bina 3 mərtəbə, zirzəmi və mansarddan ibarətdir. Binanın zirzəmisində tədris və depo sahələri, 1-ci və 2-ci mərtəbələrində tədris sahələri və konfrans otaqları yerləşir. Binanın 3-cü mərtəbəsi yataqxana, mansardı isə idman və əyləncə sahələri kimi istifadə olunacaqdır.

Bina daxilində ümumi sahəsi 423 kv metr olan 8 nəzəri, 740 kv metr sahəsi olan 10 praktiki (mexanika, energetika, avtomatika və metrologiya, kompüter, linqafon, CİS, SCADA, SƏTƏM, nəzarət ölçü cihazları kabinetləri, laboratoriya) sinif otaqları yaradılmışdır. Mərkəzdə eyni vaxtda 321 nəfərə təlim verilməsi üçün şərait yaradılmışdır.

Bununla yanaşı, ümumi sahəsi 308 kv metr olan 12 inzibati, 573 kv metr sahəsi olan 20 köməkçi otaq da yaradılmışdır. Binada 1 mətbəx, qonaqlar üçün 2, həmçinin 2 standart yeməkxanada eyni vaxtda 108 nəfərə xidmət göstəriləcəkdir.

Binanın yataqxanası 5 ədəd VİP, 12 ədəd standart yataq otaqlarından ibarətdir. Ümumi sahəsi 448 kvadrat metr olan yataqxana otaqlarında eyni vaxtda 67 nəfərin yerləşdirilməsi mümkündür.

Təlim-Tədris Mərkəzinin binasında konfrans zalı (150 yerlik, 204 kv metr), kitabxana (58 kv metr), akt zalı (204 kv metr), 2 ədəd kofe breyk yeri (43 kv metr), arxiv (48 kv metr), ilkin tibbi yardım məntəqəsi (19 kv metr), kafeteri (52 kv metr), idman zalı (175 kv metr) yaradılmışdır.



# Alim və mütəxəssislərin mühazirələri maraqla qarşılanmışdır

**"Azərsu" Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Memarlıq və İnşaat Universiteti (AzMİU) arasında "Təhsil, elm, ixtisasartırma və əmək məşğulluğu sahəsində əməkdaşlığa dair Müqavilə"yə uyğun olaraq "Azərsu" ASC-nin alim və mütəxəssisləri tərəfindən universitetdə tələbə, magistr və gənc alimlərinə su sektorunun müxtəlif sahələri üzrə mühazirələrin oxunması prosesinə başlanılmışdır.**

Martın 17-də "Azərsu" ASC sədrinin müşaviri, əməkdar mühəndis Telman Ağayev tərəfindən AzMİU-da tələbə, magistr və gənc alimlərə "Böyük Bakının su sektorunun Master Planı" mövzusunda mühazirə oxunmuşdur. T.Ağayev Master Planda Bakı şəhəri və Abşeron yarımadasının içməli su tullantı və yağış suları infrastrukturlarının yaradılması və yenidən qurulmasının perspektiv istiqamətləri barədə məlumat vermişdir.

Növbəti mühazirə 18 mart 2015-ci il tarixində "Su təchizatı və kanalizasiya sistemlərinin layihələndirilməsinin prioritet istiqamətləri" mövzusunda olmuşdur. "Azərsu" ASC "Sukanal" ETLİ-nin direktoru, iqtisad elmləri doktoru, professor Yaşar Kəlbiyev içməli su və kanalizasiya sistemlərinin layihələndirilməsi işlərinin xüsusiyyətləri, bu sahədə tətbiq olunan yeni texnologiyalar barədə ətraflı çıxış etmişdir.

Hər iki mühazirə tələbə, magistr, gənc alimlər və müəllim-professor heyəti tərəfindən böyük maraqla qarşılanmışdır.

Qeyd edək ki, 19 dekabr 2012-ci il tarixində "Azərsu" ASC ilə AzMİU arasında "Təhsil, elm, ixtisasartırma və əmək məşğulluğu sahəsində əməkdaşlığa dair" müqavilə imzalanmışdır. Müqavilə "Azərsu" ASC-nin müvafiq ixtisaslı mütəxəssislərlə təmin olunması, işçilərin peşəkarlığının artırılması, təhsil, elm, istehsalat sahələrində qarşılıqlı maraq doğuran əməkdaşlıq məsələlərini nəzərdə tutur. Müqaviləyə uyğun olaraq 17 fevral 2015-ci il tarixində "Azərsu" ASC-nin dəstəyi ilə Azərbaycan Memarlıq və İnşaat Universitetində Su təchizatının problemləri üzrə elmi-tədqiqat və tədris laboratoriyası istifadəyə verilmişdir.

# Kənd və qəsəbələrdə əhalinin içməli su təchizatı yaxşılaşdırılır

*"Azərsu" Açıq Səhmdar Cəmiyyəti regionlarda içməli su təchizatının yaxşılaşdırılması tədbirləri çərçivəsində içməli su çatışmazlığının müşahidə olunduğu kəndlərin problemlərinin həllinə xüsusi diqqət yetirir. "Azərbaycan Respublikası regionlarının 2014-2018-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq kənd və qəsəbələrdə əhalinin içməli suya olan tələbatının ödənilməsi məqsədilə layihələrin icrası davam etdirilir.*

2014-cü ildə "Azərsu" ASC-nin "Birləşmiş Sukanal" MMC-nin sifarişi ilə 127 km içməli su xətti, 2,6 km uzunluğunda kanalizasiya xətti çəkilmiş və ya dəyişdirilmiş, 5 ədəd subartezian quyusu qazılmışdır.

Cəbhəyanı bölgədə yerləşən Tovuz rayonunun Əlibəyli kəndində əhalinin içməli su təchizatının yaxşılaşdırılması məqsədi ilə yeni layihə icra edilmişdir. Layihə çərçivəsində subartezian quyusu qazılmış, transformator yarımstansiyası quraşdırılmış, 3,5 km. magistral və kənddaxili su xətləri çəkilmiş, hər birinin tutumu 100 kubmetr olan 2 su anbarı tikilmişdir. Görülmüş işlər nəticəsində 5800 nəfər sakinin içməli su təchizatı yaxşılaşmışdır.



2014-cü ildə Tərtər şəhərində, həmçinin. rayonun Bala Kəngərli kəndində, Füzuli rayonunun Yağlıvənd, Ağcabədi rayonunun Şənlik kəndində də subartezian quyuları qazılmış, magistral və paylayıcı su xətləri çəkilərək istismara verilmişdir. Eyni zamanda Şirvan şəhərinin Yeni Yaşayış massivində 49 kilometr su şəbəkəsi yaradılmış, Şirvan-Muğan kəmərindən əraziyə magistral xətt çəkilmişdir. Hesabat dövründə Balakən, Zaqatala, Qazax, Ağsu, İsmayıllı, Qobustan, Yardımlı, Biləsuvar, Salyan, Saatlı rayonlarının kənd və qəsəbələrində də tikinti-quraşdırma işləri həyata keçirilmişdir.

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində 2014-cü ildə görülmüş işlər nəticəsində kənd və qəsəbələrdə 35 min nəfərin su təminatı yaxşılaşmışdır.

2014-cü ildə Masallı rayonunun Muğanlı zonasında 23 kəndin, Yardımlı rayonunda Osnakəran, Bürzünbül, Vərgədüz, Bilnə kəndlərinin, Quba rayonunun Qəçrəş kəndinin içməli su təchizatının yaxşılaşdırılması məqsədi ilə layihələrin icrası davam etdirilmişdir. Bu kəndlərdə icra olunan layihələr ümumilikdə 31,5 min nəfərin içməli su probleminin həllinə hesablanmışdır.

# "Azərsu" ASC-nin xidmətləri ilə bağlı "ASAN xidmət"ə 10 mindən çox müraciət edilmişdir

**"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "ASAN xidmət" mərkəzlərində təmsil olunması istehlakçılara göstərilən müştəri xidmətlərinin asanlaşdırılmasına və bu sahədə şəffaflığın artırılmasına səbəb olmuşdur. 2014-cü ildə abunəçilər tərəfindən müxtəlif məsələlərlə bağlı "ASAN xidmət" mərkəzlərində fəaliyyət göstərən "Azərsu" ASC-nin xidmət bölmələrinə vətəndaşlar tərəfindən çoxsaylı müraciətlər edilmişdir.**

2014-cü ilin may ayından etibarən "ASAN xidmət" mərkəzlərində "Azərsu" ASC-nin müştəri xidmətlərinin göstərilməsinə başlanılmışdır. İlin sonunadək vətəndaşlar tərəfindən 10013 müraciət daxil olmuşdur. Müraciətlərin 6711-i qeydiyyatda olan və "Azərsu" ASC-nin abonent bazasında təsdiqini tapmış məcburi köçkün qrupuna aid abonentlərin sudan istifadə və tullantı suların axıdılması xidmətlərinə görə limitlərinin smart-karta yüklənməsi ilə bağlı olmuşdur. Bununla yanaşı 1237 müraciət smart sayğacın digər smart sayğacla əvəz olunması səbəbindən yeni smart kartların verilməsi və əvvəlki kartda qalan sərfiyyatın yeni karta köçürülməsi, 848 müraciət abonentlərin bazadakı məlumatlarına dəyişikliklərin edilməsi, 1217 müraciət isə digər məsələlərlə bağlı olmuşdur.




Ən çox müraciət Sabunçu rayonundakı 4 saylı "ASAN xidmət" mərkəzində qeydə alınmışdır.

Hazırda "Azərsu" ASC-nin xidmətləri Bakı şəhəri Nərimanov rayonu ərazisində yerləşən 1, Xətai rayonundakı 2, Yasamal rayonundakı 3 və Sabunçu rayonundakı 4 saylı, həmçinin Sumqayıt və Sabirabad şəhərindəki "ASAN xidmət" mərkəzlərində təşkil olunmuşdur. Yaxın vaxtlarda abunəçilər Gəncə şəhərində yerləşən "ASAN xidmət" mərkəzində də "Azərsu" ASC-nin xidmətlərindən istifadə edə biləcəklər.

# "Azərsu" ASC-nin nümayəndə heyəti Dünya Su Forumunun hazırlıq iclasında iştirak etmişdir



23-24 mart 2015-ci il tarixlərində Parisdə, UNESCO-nun mənzil qərargahında 7-ci Dünya Su Forumuna son hazırlıq iclası keçirilmişdir. 100-dən çox ölkədən nümayəndələrin qatıldığı iclasda 12-17 aprel 2015-ci il tarixlərində Koreya Respublikasının Daegu və Gyeoungju şəhərlərində keçirilməsi nəzərdə tutulan 7-ci Dünya Su forumuna hazırlıqla bağlı müzakirələr aparılmışdır. Tədbirdə Azərbaycanı "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin "Sukanal" Elmi-Tədqiqat və Layihə İnstitutunun direktor müavini, geologiya-mineralogiya elmləri doktoru Adışirin Ələkbərovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir.

Hazırlıq iclası çərçivəsində "Hamı üçün su təhlükəsizliyi", "Hamı üçün adekvat təhlükəsiz su və sanitariya", "İnkişaf və tərəqqi üçün su", "Dayanıqlılıq üçün su: İnsan və təbiətin harmonizasiyası", "Mümkün icra mexanizmlərinin yaradılması", "Elm və texnologiya" mövzularında ətraflı müzakirələr aparılmışdır. Həmçinin 13 aprel 2015-ci il tarixində keçirilməsi nəzərdə tutulan Nazirlər Konfransında 7-ci Dünya Su Forumunun Layihə bəyanatı və Daegu-Gyeoungju nazirlərə tövsiyələr adlı sənədlərin hazırlanması işləri yekunlaşdırılmışdır.

Müzakirələrdə "Azərsu" ASC-nin nümayəndə heyəti aktiv iştirak edərək qeyd edilən sənədlərlə bağlı təklifləri səsləndirmiş, bu təkliflərin yekun sənəddə öz əksinin tapması üçün ciddi səylər göstərmişdir.

12 -17 aprel 2015-ci il tarixlərində Koreya Respublikasının Daegu və Gyeoungju şəhərlərində keçirilməsi nəzərdə tutulan 7-ci Dünya Su Forumunda qlobal miqyasda içməli su təchizatı, tullantı sularının idarəedilməsi, ekoloji məsələlər və s. ətrafında müzakirələr aparılacaq.

Qeyd edək ki, Dünya Su Forumu Dünya Su Şurası və təşkilatçı ölkənin dəstəyi ilə üç ildən bir keçirilir. İlk forum 1997-ci ildə Mərakeşdə keçirilmişdir. 2000-ci ildə Niderland Krallığında, 2003-cü ildə Yaponiyada, 2006-cı ildə Meksikada, 2009-cu ildə Türkiyədə, 2012-ci ildə Fransada keçirilmiş forumlarda qarşıya qoyulmuş vəzifələrin və qəbul edilmiş qərarların icra vəziyyəti 7-ci Dünya Su Forumunda müzakirə ediləcəkdir.

7-ci Dünya Su Forumunda "Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynovun rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti də iştirak edəcəkdir.

# Ümumdünya Mülki Müdafiə Günü münasibətilə tədbir keçirilmişdir

***1 mart - Ümumdünya Mülki Müdafiə Günü münasibətilə "Azərsu" Açıq Səhmdar Cəmiyyətində tədbir keçirilmişdir. Tədbirdə "Azərsu" ASC-nin əməkdaşları və mülki müdafiə qüvvələrinin üzvləri, Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə İdarəsinin nümayəndələri iştirak etmişlər.***

Tədbirdə çıxış edən "Azərsu" ASC Mülki Müdafiə Qərargahının rəisi Cahangir Şərifov bildirmişdir ki, Beynəlxalq Mülki Müdafiə Təşkilatının qərarı ilə 1972-ci ildən 1 mart tarixi Ümumdünya Mülki Müdafiə Günü kimi qeyd olunur. Azərbaycan Respublikası 1993-cü ildə bu təşkilatın üzvlüyünə qəbul edilmişdir. Fövqəladə hallarla mübarizə sahəsində əhalinin hazırlığını təmin etmək mülki müdafiə orqanlarının başlıca vəzifəsidir və bu sahədə son illər "Azərsu" ASC-də geniş işlər həyata keçirilir.

Tədbirə dəvət olunmuş FHN Mülki Müdafiə Qoşunları Mülki Müdafiə İdarəsinin rəisi polkovnik Qüdrət Ağayev çıxış edərək bildirmişdir ki, belə tədbirlər mülki müdafiənin vacibliyi və həyati əhəmiyyəti barədə işçilərin maarifləndirilməsinə xidmət edir. Son illər ölkəmizdə bu sahəyə xüsusi



diqqət yetirilir və Mülki Müdafiə Qüvvələrinin fəaliyyəti beynəlxalq standartların tələblərinə cavab verir. Q.Ağayev mülki müdafiə sahəsində "Azərsu" ASC-də həyata keçirilən tədbirləri yüksək qiymətləndirmişdir.

Daha sonra fövqəladə hadisələrin qarşısının alınması sahəsində "Azərsu" ASC-də həyata keçirilmiş mülki müdafiə tədbirlərinin geniş təqdimatı olmuşdur.



# 8 mart - Beynəlxalq Qadınlar günü qeyd olunmuşdur

**8 mart** - Beynəlxalq Qadınlar günü münasibətilə “Azərsu” Səhmdar Cəmiyyətində tədbir keçirilmişdir. Bu əlamətdar gün münasibəti ilə “Azərsu” ASC-nin qadın əməkdaşlarını rəhbərlik adından təbrik edən Səhmdar Cəmiyyətinin sədrinin birinci müavini Teyyub Cabbarov 8 mart - Beynəlxalq Qadınlar gününün yaranma tarixinə nəzər salaraq bu bayramın dünyanın əksər ölkələrində qeyd olunduğunu vurğulamışdır: “Xalqımızın milli varlığını müəyyən edən mədəni-mənəvi dəyərlərimizin, adət-ənənələrimizin qorunub saxlanması və bu günədək layiqincə yaşadılmasında Azərbaycan qadınının misilsiz xidmətləri olmuşdur. Elm, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə qazanılan uğurlarda qadınlarımızın əvəzsiz xidmətləri vardır. Xalqımızın ümummilli lideri Heydər Əliyev qadınların cəmiyyətdə rolunun yüksəldilməsinə diqqət və qayğı ilə yanaşmışdır. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması, “Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında” Fərmanın imzalanması bu qayğının bariz nümunəsidir. Bu ənənələrə sadiq qalan möhtərəm Prezident İlham Əliyev qadınların ictimai-siyasi fəallığının artırılmasına xüsusi önəm vermişdir. Azərbaycan qadını artıq cəmiyyətimizdə öz layiqli yerini tutmuşdur. Bu gün qadınlar ölkəmizdə komitə sədri, nazir müavini, rektor və digər yüksək vəzifələrdə çalışırlar. Millət vəkillərinin 20 faizə yaxınını qadınlar təşkil edir. Azərbaycan qadınının, ailəsinin qarşılaşdığı problemlərin həllində, uşaqların sağlamlığının qorunması, təhsili və tərbiyəsi sahəsində Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri kimi Mehriban xanım Əliyevanın misilsiz xidmətləri vardır”.

Tədbirin sonunda “Azərsu” ASC-nin xanım əməkdaşlarına bayram hədiyyələri təqdim edilmişdir.

Qeyd edək ki, “Azərsu”ASC-də çalışan 12 minə qədər işçinin 2221 nəfərini və ya 18 faizindən çoxunu qadınlar təşkil edir.



# Məcburi köçkünlərə ərzaq yardımı edilmişdir



Azərbaycan Respublikası Prezidentinin 01 iyul 2004-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”na uyğun olaraq “Azərsu” Açıq Səhmdar Cəmiyyəti tərəfindən Novruz bayramı münasibəti ilə Saatlı rayonunda müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinə ərzaq yardımı edilmişdir.

Un, yağ, şəkər tozu, qənd, düyü və digər məhsullardan ibarət ərzaq yardımı Saatlı rayonunda məskunlaşmış Füzuli, Ağdam, Cəbrayıl, Laçın və Zəngilan rayonlarından olan 2257 nəfərdən ibarət 593 məcburi köçkün ailəsinə verilmişdir.

16-18 mart tarixlərində “Azərsu” ASC-nin və Azərbaycan Su Təsərrüfatı İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin əməkdaşları məcburi köçkün ailələrinə ərzaq yardımının paylanmasını təmin etmişlər.

# Minilliyin əsas çağırışı - sudan səmərəli istifadə edək

*1992-ci ildə BMT-nin keçirdiyi Ətraf Mühit və İnkişafa dair Konfransda ilk dəfə olaraq içməli suyun bəşəriyyət üçün əhəmiyyətini qeyd etmək məqsədilə müəyyən bir günün Ümumdünya Su Günü kimi qeyd olunması tövsiyə edilmişdir. Bu tövsiyəyə uyğun olaraq BMT Baş Assambleyası 1993-cü ildə 22 mart tarixini Ümumdünya Su Günü kimi təsdiqləmişdir.*





BMT-nin baş katibi Pan Gi Mun Dünya Su Günü münasibəti ilə ənənəvi müraciətində suyun həyatımızdakı əvəzedilməz rolunu bir daha vurğulamışdır. Baş katib cəmiyyətin sağlam və hərtərəfli inkişafının təmin olunmasında suya böyük ehtiyac duyulduğunu qeyd etmişdir.

Qida və enerji sektorunun, habelə sənayenin əksər sahələrinin inkişafının birbaşa sudan asılı olduğunu xatırladan baş katib demişdir ki, iqlim dəyişikliyi, kənd təsərrüfatında suya olan tələbatın çoxalması, sənaye və şəhərlərin inkişafı ilə bağlı çirklənmənin artması dünyanın bir çox yerlərində su böhranının yaranmasına gətirib çıxarmışdır. Bu böhranın qarşısını bütün regionları əhatə edən vahid tədbirlər planı, həmçinin beynəlxalq, regional və qlobal siyasi fəaliyyətlə aradan qaldırmaq mümkündür. Baş katib su ilə bağlı aktual məsələlərə də toxunmuşdur: ***"Su sahəsində ən aktual məsələlələrdən biri içməli su və kanalizasiya xidmətlərinə çıxışdır. Minilliyin İnkişaf Məqsədləri çərçivəsində bu sahədə ciddi irəliləyiş əldə edilməsinə baxmayaraq bu gün dünyada 750 mln. insanın su təchizatı sistemi yoxdur. Kanalizasiya sahəsində isə vəziyyət daha da acınacaqlıdır. 2,5 milyard insan kanalizasiya xidmətlərindən istifadə edə bilmir".***

Müəyyən nailiyyətlərə baxmayaraq əhalinin artımı, geniş yayılmış yoxsulluq, problemin həllinə kifayət qədər sərmayənin yönəldilməməsi və eyni zamanda, siyasi iradənin olmaması içməli su təchizatının yaxşılaşdırılması sahəsində irəliləyişə mane olur. Lazımi iradənin göstəriləcəyi təqdirdə beynəlxalq ictimaiyyətin görə biləcəyi bir sıra tədbirlər vardır: ***"Biz bu məsələni həll etsək, təmiz sudan istifadədən başqa digər sahələrdə də müsbət səmərə əldə edə biləcəyik. Su təminatına və sanitariyaya qoyulmuş hər bir dollar sərmayə yeddi dollar həcmində səmərəli fəaliyyəti stimullaşdırır. Bu fakt yoxsulluğun azalması, səhiyyə xidmətinin yaxşılaşdırılması və yaşayış səviyyəsinin artmasına stimul yaradır".***

Müraciətdə o da bildirilir ki, bu sahədə təkcə maarifləndirici fəaliyyətlə kifayətlənmək olmaz. Problemin həllinə yalnız insanların həyatına əhəmiyyətli təsir göstərən real addımlar atmaqla nail olmaq mümkündür.

İçməli su qıtlığına görə yaranmış infeksiyalar və əlverişsiz sanitar-gigiyenik şərait səbəbindən hər gün dünyada 1,4 min uşaq dünyasını dəyişir. Bu barədə isə BMT-nin Uşaq Fondunun (UNICEF) bəyanatında deyilir. Bəyanatda qeyd olunur ki, hazırda dünyada 768 mln. nəfər insan təhlükəsiz içməli sudan məhrum olub. Bu insanların əksəriyyəti ucqar rayonlarda və ya şəhər xarabalıqlarında yaşayır. İçməli sudan məhrum olanların üçdə ikisi 10 ölkədə yaşayır. Bunlar Çin (108 mln. nəfər), Hindistan (90 mln. nəfər), Nigeriya (63 mln. nəfər), Efiopiya (43 mln. nəfər), İndoneziya (39 mln. nəfər), Konqo (37 mln. nəfər), Banqladeş (26 mln. nəfər), Tanzaniya (23 mln. nəfər), Keniya (16 mln. nəfər) və Pakistandır (16 mln. nəfər).

Dünya əhalisinin hər bir üzvü gün ərzində təxminən 2-4 litr su içir, bundan daha çox içməli su isə məişətdə digər işlərə sərf olunur.